# İstanbuldakı Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrı yubiley mövsümünün açılışını Bəxtiyar Vahabzadəyə həsr edir

**Uzun illərdir İstanbulda mədəniyyətimizi təbliğ edən "Xarıbülbül" Azərbaycan Mədəniyyət Dərnəyinin nəzdindəki Vizyon Teatr Birliyi 10-cu mövsümünün açılışı ilə əlaqədar adını dəyişdirərək, Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrı olaraq fəaliyyətini davam etdirəcək.**




Teatrın builki mövsümünün açılışı Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunacaq. Bu məqsədlə dərnək İstanbulda ikigünlük geniş proqramla tamaşaçı qarşısına çıxmağa hazırlaşır. Proqrama Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını əks etdirən sərgi, şairin həyatını və əsərlərindən bəhs edən panel iclas daxildir. Proqram çərçivəsində Bəxtiyar Vahabzadəyə həsr olunan "İstiqlal şairi" sənədli filminin təqdimatı, Cəfər Cabbarlı adına Türkiyə-Azərbaycan Teatrının şairin əsərləri əsasında hazırladığı "Yağışdan sonra" ikipərdəli tamaşasının premyerası da olacaq.

AZƏRTAC olaraq tamaşanın məşqlərini izlədik, qurumun yeni layihələri ilə bağlı məlumat aldıq.

Dərnəyin və teatrın rəhbəri Kamalə Kamal Cabbarova artıq uzun illərdir böyük zəhmətlə ərsəyə gətirdiyi teatrın pərdələrini sənət yolunun 10-cu mövsümünə fəxrlə açmağa hazırlandığını bildirərək deyib: "Bu il eyni zamanda Azərbaycan Milli Teatrının 153-cü teatr mövsümünə də birlikdə qədəm qoyuruq. On ildir ki, mədəniyyətlər arasında körpü quran teatrımız və dərnəyimiz bu yeni mövsümdə də tamaşaçılarına bir-birindən dəyərli və orijinal səhnə əsərləri təqdim edəcək. Yeni mövsümdə sənətsevərləri səhnədə canlanan, qəlblərə toxunan hekayələr, düşündürücü səhnələr və unudulmaz tamaşalarla görüşdürmək üçün hazırıq. Hər yeni tamaşa yeni bir həyəcan, yeni duyğularda birləşmək deməkdir. Builki həyəcanımız isə daha da böyükdür. Həm yubileyimizi qeyd edəcək, həm də dahi Cəfər Cabbarlının adı ilə ilk dəfə səhnəyə çıxacağıq. Bununla yanaşı, açılışımızı geniş proqramla Xalq şairi Bəxtiyar Vahabzadəyə həsr etmişik. Təbii ki, bu, böyük bir məsuliyyət tələb edir".

"Yağışdan sonra" tamaşasının rejissoru Minə Bayrakeri Xalq şairinin yaradıcılığında yer alan bəşəri dəyərləri ən gözəl dillə insanlara çatdırdığını ifadə edərək deyib: "Bəxtiyar Vahabzadənin əsərində bir cəmiyyətin həqiqi zənginliyinin maddi sərvətlərdə deyil, mənəvi və əxlaqi dəyərlərdə olduğu vurğulanır. Tamaşaçıya öz dəyərlərini və müasir cəmiyyətdəki yerini yenidən düşünməyi təklif edir. Ümumilikdə isə insanlığın yaşadığı mənəvi böhranı və kimlik axtarışını bədii bir dillə səhnədə əks etdirir".

Səhnə əsərinin musiqi tərtibatçısı, "Xarıbülbül" Azərbaycan Mədəniyyət Dərnəyinin musiqi bölməsinin rəhbəri, müğənni-aktrisa Vüsalə Əsgərova Xalq şairi Bəxtiyar Vahabzadəni şəxsən tanıdığı üçün özünü çox xoşbəxt hesab etdiyini deyib: "Mən həm bir ifaçı, həm də bir aktrisa kimi xoşbəxtəm ki, Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış mahnıları, o cümlədən ilk müəllimim olan Mirzə Babayevlə "Kəpənək" mahnısını ifa etmişəm. Mənim üçün qürurverici məqamlardan biri də odur ki, Bəxtiyar Vahabzadə kimi bir çox ədəbiyyat xadimimizin kitablarını korrektə və redaktə etmişəm. Bəxtiyar Vahabzadə sadəcə şeirlərində deyil, gündəlik həyatda da daim xalqına, Vətəninə, millətinə, türkçülüyə olan sevgisini vurğulayaraq ifadə edən bir şəxsiyyət idi. Bu hissləri nəinki onun sözlərində, nəfəsində, ruhunda belə hiss etmək olardı".

Dəvət olunduğu "Yağışdan sonra" tamaşasında aktrisa kimi səhnəyə çıxacağını deyən Vüsalə Əsgərova bundan qürur hissi keçirdiyini bildirib.

Azərbaycan.- 2025.- 14 oktyabr (№220).- S.11.